# AZƏRBAYCAN QARMONUNUN SOLU: İFAÇILIQDA YENİ ÜSLUB

Sübhan Köçərli
**E-mail:** kocerlisubhan@gmail.com



Qarmon sözü - yunanca "harmon " sözündən götürülüb, nizam, əlaqə mənalarını bildirir (s.9). Azərbaycan qarmonu dedikdə, xarici görkəminə görə fərqlənməsə də kökünə (in H, yəni si) sağ və sol əllərin ifa zamanı etdiyi işlərə görə, tirlərin (plankalar) sayına görə digər qarmonlardan fərqlənən, Azərbaycan ərazisində istifadə edilən çalğı aləti nəzərdə tutulur (s.10). Azərbaycan qarmonunun geniş imkanları ifaçıya şərait yaradır ki, muğamlarımızla, oyun havalarımızla bərabər, Azərbaycan və Avropa bəstəkarlarının əsərlərinə də müraciət etsin. Eyni zamanda sol tərəfdə yerləşən səslər ifaçıya akkordeon, bayan və s. alətlər kimi heç bir müşayiət olmadan özü-özünü müşayiət imkanı yaradır. Hətta qeyd etdiyim alətlərdən fərqli olaraq Azərbaycan qarmonu ifaçıya sol əldə barmaqların beşindən də istifadə imkanı verir. Əlbəttə, nəticədə ifaçıya geniş şərait yaranır ki, bu da eyni zamanda musiqi alətinin üstünlüyü və uğuru deməkdir. Bunun üçünsə ustad sənətkarlarımıza minnətdarıq. Məhz onların Azərbaycan qarmonunda apardığı təkmilləşdirmə işləri müxtəlif janrlara ( muğamlar, aşıq havaları, oyun havaları, bəstəkar əsərləri, təzadlı polifonik ifa və s.) müraciət imkanı yaradıb. Azərbaycan qarmonu öz aktuallığını həm el şənliklərində, həm də konsertlərdə, müsabiqə və festivallarda, dövlət tədbirlərində, vətənin hüdudlarından kənarda qoruyub saxlaya bilib.

Qeyd etdiyimiz kimi, Azərbaycan qarmonunun öz potensialını saxlamasında eyni zamanda, sol əl ifaçılığının inkişafında ifaçılarımızın, pedaqoqlarmızın danılmaz zəhmətləri var. O cümlədən, bu yöndə dərsliklər də xüsusi əhəmiyyətə malikdir. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanda qarmon üçün hazırlanan ilk dərs vəsaiti pedaqoji elmlər doktoru, professor Fərahim Sadıqov və pedaqoji elmlər doktoru, professor Oktay Rəcəbova aiddir (s.50). Bu sıralamada ustadlarım Xeyrulla Dadaşov, əməkdar artist Zakir Mirzəyev, Natiq Rəsulov və başqaları da göstərilə bilər. Öncə bildirmək lazımdır ki, müxtəlif xalqlara məxsus qarmonlar quruluş və səslənməsinə görə bir-birindən fərqlənir. Avropa və Rusiyada hələ keçən əsrlərdən məlum olan bu alətin başqa növləri də mövcud idi ki, onlar qarmonika, qarmoşka, bayan, akkordeon və digər adlarla adlandırılmışlar (s.20). Diqqətinizi Azərbaycan qarmonunda sol tərəfdə yerləşən səslərin ifaçıya açdığı geniş imkanlara yönəltmək istəyirəm. Təbii ki, alət hər bir xalqın öz musiqisinə uyğunlaşdırılıb, sağ və sol əllə çalınaraq, zövqün tələbatını ödəyir. XİX əsrin sonları - XX əsrin əvvəllərində Azərbaycana gətirilən bütün qarmonların sol gövdəsindəki səs quruluşu bizim xalq musiqimiz üçün məqbul deyildi. Soldakı zəngli səslər və ya akkordlar rus musiqisini ifa etmək üçün yaradılmışdı. Onların musiqisi sağ klaviaturada ifa olunur və soldakı akkordların müşayiətilə melodiyanın ritmi təmin edilir. Odur ki, realizə olunan qarmonların üzərindəki ilk təkmilləşmə sol gövdədəki səslərlə bağlıdır. Rus qarmonlarının bizim üçün bir növ "milliləşdirilməsi" baş verdi (çünki bizim xalq musiqimiz üçün həmin qarmonlardakı akkordlar deyil, tək "züy" səslər lazım idi) (səh.28).

Əhəd Əliyev, Ələkbər Nəzərli, Teyyub Dəmirov və Məmmədağa Ağayev müəyyən tarixi dövrü əhatə edən qarmon sənətimizin inkişafında mühüm işlər gördülər. Onlar əvvəllər diatonik, daha sonralar xromatik qarmonlarda çalaraq, bunlar üzərində mühüm təkmilləşmə işi apardılar; nəticədə, milli musiqi nümunələrimizi tam şəkildə ifa etmə imkanlarına malik Azərbaycan qarmonları meydana gəldi (s.23). Bu qarmon 60 səsdən ibarət olmuş, sağ tərəfdə 18 ağ və 12 qara klavişlər yerləşmişdir. Həmin qayda üzrə sol tərəfdə də 30 səs mövcud idi. Sol tərəfdəki klavişlər sağdakı kimi eyni saydan ibarət olub, tək səsli unison köklənmişdir. Əsas mövzuya gəldikdə isə Azərbaycan qarmonunda gövdənin sol tərəfində yerləşən səslərin Azərbaycan musiqisinin tələblərinə uyğun hazırlanmasına baxmayaraq, eyni zamanda imkan verir ki, sol əlin fərqli formalarda, daha mürəkkəb, dolğun şəkildə müşayiəti təqdim olunsun. Təbii ki, bu proses Azərbaycan qarmonunun digər növləri ilə müqayisədə çox çətindir. Ancaq mümkünsüz də deyil. Çünki sol əldə barmaqların beşinin də istifadəsi mümkün olduğu üçün ifaçıya geniş imkanlar açılmış olur. İfaçılar sol tərəfdəki səslər vasitəsilə dəmkeşin funksiyasını yerinə yetirərək, öz ifalarına dəm (züy) saxlayırlar (səh:48).

Zaman- zaman sol əlin sağ əllə eyni vaxtda ifası böyük sənətkarlar tərəfindən tədricən inkişaf etdirilərək müəyyən mənada həyata keçirilib. Lakin həmin ifalar xeyli az sayda və davamlı olmadığı üçün sol əl ifaçılığı inkişaf prosesini saxlayıb desək, yanılmarıq. Bir çox hallarda sol əl istifadəsiz qalır, yalnız körüyün açılıb bağlanmasında iştirak edir. Sol əlin müşayiəti dedikdə, söhbət ifa olunan musiqinin tam həcmdə, yəni əvvəldən sona kimi müşayiətindən gedir, yarımçıq müşayiətdən yox. Buna səbəb isə ifaçıların iki işi eyni anda görə bilməməsidir. İfa zamanı sağ əldə bir balaca çətin xanə olan kimi sol əlin müşayiəti dayanır, ya da həmin xanə ötəri səsləndirilir. Sol əlin müşayiəti dedikdə bu, nəzərdə tutulmur. Çünki müşayiət deyil. Bu müşayiətdirsə, bəs tam həcmdə, davamlı və elmi əsaslarla olunan nədir?! Müşayiətin müxtəlif formaları var. Sol əlin müşayiəti dedikdə yalnız akkord vasitəsiylə reallaşan nəzərdə tutulmur. Onu da qeyd edim ki, müşayiət müxtəlif forma

və quruluşlarda olduğu üçün söhbət Azərbaycan qarmonunun imkanları daxilində həyata keçirilə bilənlərdən gedir. Bu isə Azərbaycan qarmonunun imkansız olması anlamına gəlməməlidir. Çünki, qarmonun imkanlarını düzgün qiymətləndirən də, müşayiətin hansı forma və quruluşda olmasını təyin edən də, həmin müşayiətlə qarmonun imkanları arasında uzlaşma, vəhdət yaradan da ifaçıdır. Söhbət dedikcə az sayda göstəriləcək ifaçılarla bağlıdır. Hətta həmin ifaçılar özləri də bu adət-ənənəni davam etdirməyiblər. Yəni, tam həcmdə və davamlı həyata keçirməyiblər. Uzun illər sənətdə olmalarına baxmayaraq, tam həcmdə təqdim etdikləri yalnız iki-üç nümunə var. Ümumiyyətlə, müşayiət üçün bu barədə bilginin olması vacibdir. Bu da həqiqətdir ki, qarmon ifaçılarımızın olduqca az qisminin həmin amillərdən xəbəri var. Qarmon ifaçılarının repertuarına nəzər salsaq görərik ki, sol əl mövzusu onlar üçün öndə duran məsələ olmayıb. Çünki uzun illər sənətdə olub, lakin sol əlin müşayiəti ilə iki və ya üç ifa təqdimatı, repertuarlarında əsas yeri tutmaması bizə belə fikir söyləməyə əsas verir. Eyni zamanda, sözügedən hal ifaçılar üçün sol əl ifasının nə qədər çətin və keçilməz bir məsələ olduğunun göstəricisidir. Necə ki, sol əl bədənimizin ayrılmaz əzasıdır, eləcə də sol düymələr qarmonun tərkib hissəsidir. Bu mənada, sol əlin müşayiəti qeyd etdiyimiz şərtlərlə, yəni tam həcmdə, elmi əsaslarla və davamlı şəkildə repertuarımızın əsasını təşkil etməlidir. Qarmon ifaçılarının təqdim etdikləri repertuarlarda isə buna rast gəlinmir. Qeyd etdiyim amillərin yoxluğu haqlı olaraq bizə: "Azərbaycan qarmonunda sol əlin müşayiəti həyata keçirilmir" - deməyə əsas verir.

Alətin sol tərəfində yerləşən səslər və ifaçının barmaqlarının beşinin də işləməsinin mümkünlüyü ifaçıya akkordla yanaşı, daha dolğun, mürəkkəb və müxtəlif formalarda müşayiəti həyata keçirməyə imkan yaradır. Bu isə qarmon ifaçılığında yeni bir mərhələnin başlanğıcı deməkdir. Mənim ifamda qarmon sol əlin fərqli partiturada, mürəkkəb və dolğun formada və heç kimin müşayiəti olmadan özü-özünü müşayiət edərək Azərbaycan Televiziya və Radiosunun Səsyazma Evi tərəfindən lentə alınıb. Eyni zamanda həmin formada ifam efirdə də səsləndirilib. Bu isə o deməkdir ki, Azərbaycan qarmonu piano, akkordeon, bayan və s. alətlər kimi tək və ən əsası özü-özünü məxsusi şəkildə təqdim etmək imkanına malikdir. Bunlarla bərabər, ilk dəfə olaraq Azərbaycan qarmon ifaçılığında təzadlı polifonik ifa təqdim etmişəm. Belə ki, sağ və sol əl bir-birinə qarşı qoyularaq iki tam fərqli musiqi əsəri eyni anda səslənir. Sağ əldə " Libertango", sol əldə isə "Happy Birthday to you". Əgər eyni anda orkestrdəki ifaçların bir hissəsi "Libertango", digərləri isə "Happy Birthday to you" ifa edirsə, bir ifaçının iki fərqli təqdimat qabiliyyətinin mümkünlüyü və alətin geniş imkanlarını təsdiqləmiş oldum. Əgər digər ifalarda sol əl sağ əldə səslənən melodiyanı müşayiət edirsə, artıq burada sol əl müşayiətdə deyil, sərbəst (ayrıca musiqi əsəri ifa edir) çıxış edir. Sözügedən ifa Azərbaycan Televiziya və Radiosunun Səsyazma Evi tərəfindən lentə alınmaqla qorunub saxlanılır. Eyni zamanda, iki musiqinin eyni anda ifası qarmon və qarmon ailəsinə aid alətlər arasında dünyada ilk dəfə olduğu üçün Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi tərəfindən müəlliflik hüquqları da qorunur (Mənə aiddir). Lakin qeyd etdiyimiz kimi, daha da dolğun, mürəkkəb və müxtəlif formalarda müşayiəti həyata keçirtmək, təzadlı polifonik ifa təqdim etmək üçün sol əldə barmaqların beşinin də işləməsi mütləqdir.

Bu günə qədər mənbələrdə "qarmonun sol klaviaturasının cəmi üç, bəzi hallarda dörd barmaqla çalınır" (s.8), "əsasən üç barmaqla çalınmaq üçün nəzərdə tutulur. Yüksək ifaçılıq qabiliyyətinə malik yuxarı sinif şagirdləri müstəsna halda birinci və beşinci barmaqlardan istifadə edə bilər (2, 3, 4)" (s.4), "sol əlin 3 və ya 4 barmağı uyğun tonallıqda dəmsaz (pedal) not saxlayır" (s.68), "qarmonun sol tərəflə müşayiəti zamanı beşinci (çeçələ) barmaqdan istifadə etmək olmur. Əsasən üç barmaq (2-ci, 3-cü, 4-cü barmaq) bu işdə əsas rol oynayır. Birinci barmaqdan (baş barmaq) nadir hallarda və çox çətinliklə istifadə olunur" (s.379; s.695) kimi fikirlər öz əksini tapır. Həmin səbəbdən də istər dərsliklərdə, istərsə də təcrübədə təqdim olunan müşayiət formaları qarmonun imkanları müqabilində çox sadə və passivdir. Sadə və passivliklə yanaşı, həm də qeyd etdiyim kimi, davamlı olaraq da həyata keçirilməyib.Mən isə ilk dəfə sol əldə barmaqların beşinin də istifadəsinin mütləqliyini və rahat formada mümkünlüyünü qeyd edirəm. Bunun üçünsə sol əldə qammaların ifası mütləqdir (qarmon ifaçılığında sol əldə həm də sol əlin sağ əllə eyni anda müxtəlif istiqamətlərdə qammaların ifası ilk dəfədir həyata keçirilir). Əlbəttə ki, qammaların ifası ifaçıların barmaqlarının beşinin də işləməsinə və istənilən manevrə hazırlığına birbaşa və real zəmin yaratdığı üçün alətin sol tərəfində yerləşən səslərin bütün imkanlarından istifadəyə, müxtəlif müşayiət formalarının həyata keçirilməsinə şərait yaradır. Qammalar sağ əldə olduğu kimi, sol əldə də həm bir oktava, həm də iki oktava həcmində həyata keçirilməlidir. Bununla yanaşı qammalar sağ və sol əldə eyni vaxtda müxtəlif forma və istiqamətlərdə də məşq olunmalıdır. Çünki bu kimi məşğələlər ifaçıda iki müxtəlif işi eyni anda həyata keçirmək kimi qabiliyyət formalaşdırır.

**QAMMALAR**

Sol əldə barmaqların ardıcıllığı

Do major – Re major – Mi major – Sol major – Lya major – Si major

Do minor – Re minor – Mi minor – Sol minor – Lya minor – Si minor

I oktava

1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1

II oktava

1, 2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1, 4, 3, 2, 1, 3, 2, 1

Fa major – Fa minor

1, 2, 3, 4, 1, 2, 3, 4, 3, 2, 1, 4, 3, 2, 1,1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 4, 3, 2, 1, 4, 3, 2, 1, 3, 2, 1, 4, 3, 2, 1

Si bemol major - Si bemol minor

2, 1, 2, 3, 1, 2, 3, 4, 3, 2, 1, 3, 2, 1, 2

Mi bemol major

2, 1, 2, 3, 4, 1, 2, 3, 2, 1, 4, 3, 2, 1, 2

2, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 1, 2 (3), 3 (4), 2 (3), 1, 4, 3, 2, 1, 3, 2, 1, 4, 3, 2, 1, 2

Lya bemol major

2, 3, 1, 2, 3, 1, 2, 3, 2, 1, 3, 2, 1, 3, 2

Re bemol major

2, 3, 1, 2, 3, 4, 1, 2, 1, 4, 3, 2, 1, 3, 2

2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 1, 2 (3), 1, 4, 3, 2, 1, 3, 2, 1, 4, 3, 2, 1, 3, 2

Do diyez minor - Fa diyez minor

2, 3, 1, 2, 3, 1, 2, 3, 2, 1, 3, 2, 1, 3, 2 (Nat. Har.)

2, 3, 1, 2, 3, 4, 1, 3, 2, 1, 3, 2, 1, 2, 3 (Mel.)

Do diyez minor

II oktava

2, 3, 1, 2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2 (3), 3 (4), 2 (3), 1, 3, 2, 1, 4, 3, 2, 1, 3, 2, 1, 2, 3 (Nat.Har.)

2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 1, 3, 2, 1, 3, 2, 1, 4, 3, 2, 1, 3, 2, 1, 2, 3 (Mel.)

Sol diyez minor

2, 3, 1, 2, 3, 1, 2, 3, 2, 1, 3, 2, 1, 3, 2 (Nat. Har. Mel.)

**Arpecio**

Do major – Re major – Mi major – Sol major – Lya major – Si major

Do minor – Re minor – Mi minor – Sol minor – Lya minor – Si minor

I oktava - 1, 2, 3, 5, 3, 2, 1; II oktava - 1, 2, 3, 1, 2, 3, 5, 3, 2, 1, 3, 2, 1;

Si bemol major - Mi bemol major - Lya bemol major - Re bemol major

Re bemol major - Do diyez minor - Sol diyez minor

2, 1, 2, 3 (4) 2, 1, 2 (I oktava). 2, 1, 2, 3, 1, 2, 3, 2, 1, 3, 2, 1, 2 (II okt)

Si bemol minor - Mi bemol minor
2, 3, 4, 5, 4, 3, 2 (I oktava). 2, 3, 4, 2, 3, 4, 5, 4, 3, 2, 4, 3, 2 (II oktava)
Sağ və sol əl eyni vaxtda müxtəlif istiqamətlərdə
Düz və əks hərəkətdə
Do major
Sağ əl 1, 2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1, 4, 3, 2, 1, 3, 2, 1, 2, 3, 1, 2, 3, 4, 5, 4,3, 2, 1, 3, 2, 1 (I oktavanın do notundan başla).
Sol əl 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1, 2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1, 4,3, 2, 1, 3, 2, 1 (I oktavanın do notundan başla).
Lya minor
Sağ əl 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1 (I oktavanın lya notundan başla).
Sol əl 5, 4, 3, 2, 1, 3, 2, 1, 2, 3, 1, 2, 3, 4, 5 (II oktavanın lya notundan başla və bəmə doğru ifa et).

**Arpecio**
Sağ əl 1, 2, 3, 1, 2, 3, 5, 3, 2, 1, 3, 2, 1, 2, 3, 5, 3, 2, 1
Sol əl 1, 2, 3, 5, 3, 2, 1, 2, 3, 1, 2, 3, 5, 3, 2, 1, 3, 2, 1
Sağ əl 1, 2, 3, 5, 3, 2, 1
Sol əl 5, 3, 2, 1, 2, 3, 5

Digər qammalar da qeyd olunan ardıcıllıqlarla ifa olunacaq və təbii ki, barmaqlar da qammalara uyğun olaraq dəyişəcək. Daha sonra yuxarıda qeyd olunan ardıcıllıq əsasında tersiyalarla ifa olunmalıdırlar. Məs.:
Do Major
Sağ əl 1, 2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1, 4, 3, 2, 1, 3, 2, 1 (I oktavanın do notundan başla).
Sol əl 1, 2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1, 4, 3, 2, 1, 3, 2, 1 (I oktavanın mi notundan başla).
Düz və əks hərəkətdə
Sağ əl 1, 2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1, 4, 3, 2, 1, 3, 2, 1, 2, 3, 1, 2, 3, 4, 5, 4,
3, 2, 1, 3, 2, 1 (I oktavanın do notundan başla).
Sol əl 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1, 2, 3, 1, 2, 3, 4, 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1, 4, 3, 2, 1, 3, 2, 1 (I oktavanın mi notundan başla).

Lya minor
Sağ əl 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1 (I oktavanın lya notundan başla).
Sol əl 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1 (II oktavanın do notundan başla).
Melodik halda isə sol əldə 1, 2, 1, 2, 3, 1, 2, 3, 2, 1, 3, 2, 1, 2, 1 barmaqlardan istifadə olunacaq.
Düz və əks hərəkətdə
Sağ əl 1, 2, 3, 1, 2, 3, 4, 5, 4, 3, 2, 1, 3, 2, 1 (I oktavanın lya notundan başla).
Sol əl 5, 4, 3, 2, 1, 3, 2, 1, 2, 3, 1, 2, 3, 4, 5 (II oktavanın do notundan başla və bəmə doğru ifa et).
Melodik halda isə sol əldə 3, 2, 1, 3, 2, 1, 2, 1, 2, 3, 1, 2, 3, 4, 5 barmaqlardan istifadə olunacaq.

Sağ və sol əlin eyni vaxtda müxtəlif istiqamətlərdə hərəkəti nümunə olaraq sizlərə do major və lya minor qammalarında təqdim edildi. Yuxarıda bütün qammaların barmaq ardıcıllığı və hansı formada, necə ifa ediləcəyi göstərildiyi üçün digər qammalara da özünüz tədbiq edə bilərsiniz. Qeyd olunan amillər nəticədə ifaçının barmaqlarının onunun da işləməsinə və iki müxtəlif işi eyni anda həyata keçirmək qabiliyyətinin formalaşmasına gətirib çıxaracaq. Mənbələrdə göstərilən sol əl üçün məşğələlər isə bu iş üçün kifayət deyil. Deməli nəinki ifaçılıqda, o cümlədən dərsliklərdə də yeni yanaşmaya ehtiyac var. Həmin səbəbdən də qeyd etdiyim mühim amilləri, o cümlədən ifamda səslənən sol əlin müxtəlif formalarda, daha da dolğun, mürəkkəb müşayiətini özündə cəmləyən məcmuə üzərində çalışıram. Bu isə ifaçılıqda olduğu kimi, tədrisdə də yeni mərhələnin başlanğıcı deməkdir. Təbii ki, məqsədim belə ifaları daha da çoxaldaraq geniş kütləyə təqdim etmək, gələcək nəsillərə ötürmək və Azərbaycan qarmonunun imkanlarını beynəlxalq səhnələrdə göstərməklə Vətənimizi təmsil etməkdir. Azərbaycan qarmonunda muğamlarımızla, oyun havalarımızla bərabər, Azərbaycan və Avropa bəstəkarlarının əsərlərinə də müraciyət etmək və onu yuxarıda qeyd qeyd olunan formalarda həyata keçirtmək "İMKANSIZ" AZƏRBAYCAN QARMONUNUN GENİŞ İMKANLARI DEMƏKDİR! ❖

**Ədəbiyyat:**
1. Abdullayeva S. "Azərbaycan çalğı alətləri dünyanı valeh edir". Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2016. Səh: 68.
2. Dadaşov X. "Qarmon məktəbi" (Dərs vəsaiti). Bakı, "Şirvannəşr", 1999. Səh: 8.
3. Dadaşov X. "Qarmon məktəbi" (Dərs vəsaiti). Bakı, "Şirvannəşr", 2004. Səh: 8.
4. Mirzəyev Z. "Azərbaycan qarmonu". Bakı, "Adiloğlu nəşriyyat", 2007. Səh: 20.
5. Nəcəfzadə A. "Çalğı alətlərimiz". Bakı, "Min bir mahnı", 2004. Səh: 9.
6. Nəcəfzadə A. "Xalq çalğı alətlərinin tədrisi metodikası" (Dərs vəsaiti). Bakı, "MBM", 2007. Səh: 48, 50.
7. Rəsulov N. "Qarmon məktəbi". Bakı, "Çaşıoğlu",1999. Səh: 4.
8. Rəhmanlı Ə. "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi". Bak,"Araz" nəşriyyatı, 2008. Səh: 10, 379.
9. Rəhmanlı Ə. "Qarmon ifaçılığı sənəti və onun Azərbaycanda tədrisi". II nəşr (Əlavələrlə). Bak, "MBM" 2014. Səh: 695.
10. Rəhmanlı Ə. "Qarmon məktəbini yaradan Əhəd". Bakı, 'Ecoprint", 2018. Səh: 23, 28.

**Резюме**
Субхан Кочерли
"НЕВЕРОЯТНЫЕ " ШИРОКИЕ ВОЗМОЖНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ ГАРМОНИИ
Гамма в левой руке, одновременное исполнение гаммы в разных направлениях правой и левой рукой, контрастное полифоническое исполнение, работа всех десяти пальцах,
Звуки на левой стороне азербайджанского гармона позволяют исполнителю сопровождать аккорд в более полной, сложной и разнообразной форме. Для этого важно выполнять гаммы левой рукой (одновременно левой и правой рукой в разных направлениях одновременно). В результате исполнитель будет работать на всех десяти пальцах и будет готов к любому маневру или ситуации. В первый раз используя возможности азербайджанского гармона, автор представил контрастную полифонию (одновременно звучат два совершенно разных музыкальных произведения) в исполнении азербайджанского гармона. Авторские права защищены Агентством интеллектуальной собственности Азербайджанской Республики (принадлежит автору статьи).

**Summary**
Subkhan Kocherli
" IMPOSSIBLE " WIDE OPPORTUNITIES OF THE AZERBAIJANI HARMONY
Gamma in the left hand, simultaneous performance of the gamma in different directions in the right hand and left hand, contrasting polyphonic performance, working on ten fingers.
The sounds on the left side of the Azerbaijani harmony allow the performer to accompany the chord in more complete, complex and various forms.
For this, it is important to perform gammas in the left hand (simultaneously with the left hand and the right hand in different directions at the same time).
As a result, the performer will work on ten fingers and be ready for any maneuver or situation. For the first time, using the opportunities of the Azerbaijani harmony, I presented a contrasting polyphony (two completely different pieces of music sound at the same time) in the performance of the Azerbaijani harmony. As this is the first time in the world, copyright is also protected by the Intellectual Property Agency of the Republic of Azerbaijan (belongs to autor).